# Şuşanın hər birimizin qəlbində yeri vardır

***Məlum olduğu kimi, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə müraciətində bildirib ki, 2022-ci ildə Şuşanın yubileyi böyük təntənə ilə qeyd ediləcək. Dövlətimizin başçısı Şuşanın bərpasını sürətləndirmək məqsədilə 2022-ci ili "Şuşa ili" elan edib. Bu xəbər məni çox sevindirdi. Axı, Şuşanın yeri hər birimizin qəlbində bir başqadır. Fikrimcə, bu gözəl və bənzərsiz şəhər xalqımızın zəngin mədəniyyətini özündə təcəssüm etdirir.***

Bu gün Şuşa azaddır, xoşbəxtdir. Şuşa ilə bərabər xalqımız da özünü haqlı olaraq xoşbəxt sanır. Bu xoşbəxtlik bizə Ali Baş Komandan İlham Əliyevin yüksək qətiyyəti, rəşadətli ordumuzun igid əsgər və zabitlərinin qeyri-adi şücaətləri sayəsində nəsib olub.

Azərbaycan əsgəri Şuşanın azad edilməsi zamanı tarix yazıb. Bütün dünya bunun fərqindədir. Biz bir dövlət və xalq olaraq öz qədim tariximizin ən şərəfli günlərini yaşayırıq.

Şuşanın sevməyən, ona qəlbən bağlanmayan insan tapılmaz. Amma, mənə elə gəlir ki, möhtərəm Prezidentimiz Şuşanın hər birmizdən daha çox sevir. Cənab İlham Əliyev bir dəfə bu barədə danışarkən demişdir: "Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır".

Cənab Prezidentin bu səmimi sözləri heç vaxt yadımdan çıxmır. Xalqımız əl-ələ verib Şuşanın yaralarını sağaldır. Şuşada son aylar ərzində aparılan böyük quruculuq işlərini müşahidə edəndə isə, qəlbim dağa dönür.

2022-ci ilin "Şuşa ili" elan edilməsi xalqımız üçün çox əlamətdar hadisədir. İnanıram ki, Xan qızı Natəvanın, dahi Üzeyir bəyin, böyük müğənni Bülübülün vətəni olan Şuşanın gələcəyi daha da parlaq olacaq. Bundan sonrakı qərinələr, əsrlər boyu şəhərin çox zəngin mədəni həyatı olacaq. Həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə burada bir-biindən maraqlı tədbirlər – festivallar, müsabiqələr keçiriləcək. Şuşa buna layiqdir.



Bu gün təkcə Şuşada, işğaldan azad edilmiş digər ərazilərdə də nəhəng tikinti-quruculuq işləri görülür. Azərbaycan xalqı işğalçı Ermənistanın vandalcasına dağıtdığı şəhər və kəndləri yenidən qurub-yaradır. Ermənilər uzun onillər boyu dünyanın hər yerində xalqımıza olmazın böhtanlar atıb. Amma bu gün sivil dünya görür ki, kim haqlı, kim haqsızdır. Kim dağıtmaqla məşğul olub, kim qurub-yaratmaqla! Bəli, haqq-ədalət öz yerini mütləq tapır.

Azərbaycanı gələcəkdə bundan da parlaq işlər, uğurlar gözləyir.

Təsadüfi deyil ki, Prezident müraciətdə demişdir: "Əziz həmvətənlər, qeyd etdiyim kimi, bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Mən fürsətdən istifadə edərək cənab İlham Əliyevə xalqımızın rifahı, ölkəmizin inkişafı və tərəqqisi üçün həyata keçirdiyi möhtəşəm işlərə görə ürəkdən təşəkkür etmək istəyirəm. Bəli, Qarabağ Azərbaycandır!

***Minaxanım ƏSƏDLİ,***
***Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru***

Xalq qəzeti .- 2022.- 9 yanvar- S.7.